# Rayon icra hakimiyyətində geniş şura iclası keçirilmişdir

***Avqustun 9-da Qəbələ Rayon İcra Hakimiyyətində 2019-ci ilin birinci yarımilinin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair şura iclası keçirilmişdir. Tədbirdə rayon icra hakimiyyəti yanında şuranın üzvləri, icra nümayəndələri, bələdiyyə sədrləri, idarə, müəssisə, təşkilat rəhbərləri və sahibkarlar iştirak etmişlər.***

***İclasda rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin 2019-cu ilin birinci yarımilinin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair hesabat məruzəsi dinlənilmişdir (məruzə qəzetimizin bu sayında dərc olunur. Bax. səh. 5).***

Hesabat məruzəsi ətrafında Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Rahib Əhmədov, Qəbələ Rayonu üzrə Maliyyə İdarəsinin rəisi Namiq Ağayev, DSMF-nin Qəbələ Rayon Şöbəsinin müdiri Arzu Hacıyev çıxış etmişlər.



İclasda sosial-iqtisadi inkişaf sahəsindəki mövcud vəziyyət ətraflı müzakirə olunaraq qarşıda duran vəzifələr müəyyənləşdirilmiş və müvafiq qərar qəbul olunmuşdur.

İclasda Azərbaycan Respublikası Prezidentinin 27 may 2019-cu il tarixli 1205 nömrəli Sərəncamı ilə «Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)» yubiley medalı ilə təltif edilən rayon sakinlərindən Sevil Talıbovaya, Nazim Mustafayevə və Səfər Səfərova həmin medallar təqdim olunmuşdur.



Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2019-cu il tarixli 1284 nömrəli Sərəncamı ilə təltif olunmuş Qəbələ Rayon İcra Hakimiyyətinin sektor müdiri Zahir Kərimova isə «Dövlət qulluğunda fərqlənməyə görə» medalı təqdim edilmişdir.

Şura iclasını rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev yekunlaşdırmışdır.

**«Qəbələ»**
**İlkin Vəlizadə (foto).**

# Sakinlər onlara göstərilən dövlət qayğısından məmnundurlar

***Əhalinin problemlərinin yerində öyrənilməsi və həll edilməsi məqsədilə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin növbəti səyyar görüş-qəbulları keçirilib.***

## Şamlı kəndi



RİH başçısı aparatı əməkdaşlarının, hüquq-mühafizə orqanlarının və kənd ictimaiyyəti nümayəndələrinin iştirak etdiyi görüşdə rayon icra hakimiyyətinin başçısı Qəbələnin sosial-iqtisadi inkişafı istiqamətində icra edilən layihələrdən, əhalini narahat edən problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlərdən, infrastrukturun yaxşılaşdırılması sahəsində görülən işlərdən ətraflı danışıb.

RİH başçısı çıxışında ölkə Prezidenti İlham Əliyevin verdiyi tapşırıqların həyata keçirilməsi, yerlərdə əhalinin qayğı və problemlərinin öyrənilməsi və operativ həll edilməsi məqsədi ilə keçirilən bu cür səyyar görüşlərin çox önəmli olduğunu tədbir iştirakçılarına bildirib.



Sonra kənd sakinləri dinlənilib. Onlar Prezident İlham Əliyevin diqqət və qayğısı ilə ölkədə və rayonda aparılan quruculuq işləri ilə bağlı ölkə başçısına minnətdarlıqlarını ifadə ediblər.

Çıxış edənlərdən Akif Mirzəcanov, Abid Balağayev, Mətləb Süleymanov və başqaları rayonumuzda aparılan abadlıq işlərindən Şamlı kəndinin də kənarda qalmadığını və əhalinin əsas məşğuliyyəti hesab olunan aqrar sahənin inkişaf etdirilməsi üçün sakinlərə dövlət tərəfindən hər cür dəstək göstərildiyini bildiriblər.

Sakinlər çıxışlarında görülən işlərlə yanaşı yaşayış məntəqəsində elektrik xətlərinin dəyişdirilməsinə, yeni yaşayış massivinə su və qaz xətlərinin çəkilməsinə, Hacıalılı-Şamlı yolunun genişləndirilməsinə və asfaltlaşdırılmasına ehtiyac olduğunu diqqətə çatdırıblar.

Rayon icra hakimiyyətinin başçısı vətəndaşların qaldırdıqları məsələlərin həlli ilə bağlı əlaqədar qurum və təşkilatlara müraciət olunacağını bildirib. Yerli təşkilatlardan asılı olan məsələlərin icrası istiqamətində isə yerindəcə tapşırıqlar verib.

---

## Laza kəndi

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Laza kənd sakinləri ilə səyyar görüş-qəbulu keçirilib.

Hüquq-mühafizə orqanları, xidmət sahələri rəhbərlərinin və kənd ictimaiyyəti nümayəndələrinin iştirak etdiyi görüşdə rayon icra hakimiyyətinin başçısı çıxış edərək Qəbələnin və rayonun yaşayış məntəqələrinin sosial- iqtisadi inkişafı sahəsində görülən işlər barədə ətraflı məlumat verib.

Əhalinin rifahının yüksəldilməsi ilə bağlı aparılan islahatlardan, onların sosial qayğılarının müdafiəsindən, xüsusilə yeni yolların, körpülərin, təhsil, səhiyyə ocaqlarının tikintisindən və həyata keçirilən digər mədəni-quruculuq layihələrindən danışan natiq, son illərdə rayonda sahibkarlığın inkişafına verilən dövlət dəstəyi hesabına xeyli işlərin görüldüyünü bildirib.



RİH-nin başçısı Lazada kənd təsərrüfatı–xüsusilə heyvandarlıq və əkinçilik sahəsində işlərin daha da intensivləşdiyini və cənab Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına tətbiq olunan güzəştlərdən, ayrılan subsidiyalardan səmərəli istifadə olunduğunu, bunun hesabına heyvandarlığın inkişaf etdiyini və əkin sahələrinin məhsuldarlığının artırıldığını, kənd sakinlərinin işə cəlb olunmasında yeni imkanların yarandığını diqqətə çatdırıb.

Görüşdə çıxış edən kənd sakinlərindən Əjdər Mirzəmmədov, Bəhərçin Bəhərçinov, Zamin Bəşirov, İlham Babayev, Seymur Qurbanov və başqaları kənd əməkçilərinə göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək cənab Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər. Onlar kənddə işıq xətlərinin təmir olunmasını, vətəndaşların odun yanacağı ilə təmin edilməsi və yaşayış



məntəqəsinə əlavə transformatorun qoyulmasını xahiş ediblər.

RİH-nin başçısı görüşdə səsləndirilmiş təkliflərlə bağlı aidiyyəti məsul şəxslərə konkret tapşırıqlar verib.

**“Qəbələ”**
**İlkin Vəlizadə (foto).**